*UOT 37.0*

***Aydın Rzaxan oğlu İbişov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının baş müəllim*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİ

***Айдын Рзахан оглы Ибишов***
*старший преподаватель Джалилабадского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*

# ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКОЕ ОБРАЗОВАНИЕ

***Aydin Rzakhan Ibishov***
*senior teacher of Jalilabad branch of*
*Azerbaijan State Pedagogical University*

# HEYDAR ALIYEV AND AZERBAIJANIAN EDUCATION

**Xülasə.** Məqalədə Heydər Əliyevin tarixi bir şəxsiyyət kimi Azərbaycan xalqının həyatında misilsiz xidmətləri, gördükləri işlər haqqında məlumat verilir. Müstəqil dövlət quruculuğunda Azərbaycan təhsilinin, yüksək ixtisaslı mütəxəssislərin, hərbi kadrların, o cümlədən savadlı səhiyyə işçilərinin yetişdirilməsi kimi amillərin inkişafını təhsildə, maarifçilikdə görürdü. Ölkəmizin idarə olunmasında gənclərin dövlət, sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında rolu xüsusi ilə qeyd olunur.
***Açar sözlər:*** *Heydər Əliyev, elm, təhsil, məktəb, müəllim, gənclik.*

**Резюме.** В статье представлена информация о неоценимых заслугах и трудах Гейдара Алиева в жизни азербайджанского народа как исторической личности. Великий лидер видел развитие азербайджанского образования, формирование высококвалифицированных специалистов, военных кадров, а также грамотных работников как в области медицины, так и в области просвещения. Особо отмечена роль молодежи в государственной, социально-экономической, общественно-политической и культурной жизни нашей страны.
***Ключевые слова***: *Гейдар Алиев, наука, образование, школа, учитель, молодежь*

**Summary.** The article presents information about the unparalleled merits and works of Heydar Aliyev in the life of the Azerbaijani people as a historical figure. During the construction of an independent state in Azerbaijan, education, highly qualified specialists, military personnel, as well as educated healthcare were developed in the development of such factors as education and enlightenment. The role of youth in the state, socio-economic, socio-political and cultural life of our country was particularly noted.
***Keywords***: *Heydar Aliyev, science, education, school, teacher, youth.*

Yaradanlar və yaşadanlar sağlığında əbədiyyətə qovuşurlar. Belə şəxsiyyətlər bəşər tarixində tək-tək olmuşdur. Bu təklərdən biri də Heydər Əliyevdir. Tarix Heydər Əliyevi ona görə yaratmışdır ki, bu insan əsrlərlə yadellilərin istismarına düçar olan Azərbaycan xalqının taleyində yeni bir tarixi səhifə açıb millətin gələcək inkişafını şərəfləndirsin.

H. Əliyevin yaratdığı tarixi səhifələri vərəqləyəndə, həmçinin onun şəxsiyyəti haqqında düşünəndə ilk təsəvvürdə dahi rəhbərin milli vətəndaş, siyasi dövlət xadimi kimi bənzərsiz siması canlanır. Bu dahi sima bir rəhbərin öz xalqına, millətinə, cəmiyyətimizin hər bir üzvünə təmənnasız xidmət etmək, öz sevincini xalqının xoşbəxt rifahında görmək istəyindən parlayır!

H. Əliyevin elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşması sayəsində təkcə paytaxtımızda deyil, Respublikamızın digər ucqar yaşayış məntəqələrində yüzlərlə məktəb, mədəniy-

yət evi, kitabxana, uşaq bağçalarının tikilməsi ilə nəticələnmiş, bütün sahələrdə görünməmiş uğurlar qazanılmışdır. H. Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin zəngin maddi-texniki bazasının formalaşdırılması, gənclərin Respublikanın hüdudlarından kənardakı Ali məktəblərə göndərilməsi, hərbi kadrların yetişdirilməsi, həmçinin Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır.

Ulu öndər yaxşı bilirdi ki, Azərbaycanda yüksək ixtisaslı mütəxəssislərin, hərbi kadrların, o cümlədən savadlı səhiyyə işçilərinin yetişdirilməsi istənilən əcnəbi ölkələrdə dövlət müstəqilliyimizin əsasını təşkil edəcək ən mühüm amillərdən biridir. Buna görə dahi öndər cəmiyyətin inkişaf zəminini düzgün olaraq təhsildə və maarifçilikdə görür, bunun üçün qeyd edilən sahələrin inkişafına xüsusi diqqət və qayğısını əsirgəməmişdir.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişaf yolundakı böyük xidmətləri sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin ən məşhur ali məktəblərində Respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq Azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmışdır.

Milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilin, tərbiyənin əvəzsiz rolu olduğunu Ulu Öndər həmişə vurğulamışdır. Azərbaycan təhsilinin milli tariximizdə coşqun yüksəlişi, əsl intibah illəri kimi daxil olan ilk mərhələsi H. Əliyevin Azərbaycana rəhbərliyinin 1969-82-ci illər dövrünə təsadüf edir. 1999-cu ildə elm sahəsində islahat proqramının qüvvəyə minməsi ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etmişdir. Bunun üçün Heydər Əliyev "İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır" – konseptual göstərişini əsas tutmuşdur [4,156]. Ulu öndər gənc nəslin nümayəndələrində təhsil və pedaqogikaya sevgi, ehtiram yaratmaq üçün demişdir: "Təhsil millətin gələcəyidir. Mən millətimdən yüksək ad tanımıram. Müəllim sənəti şərəfli bir sənətdir" [2, s.12].

Bu istiqamətdə atılmış unudulmaz ən ciddi yeniliklərdən biri qrafikamızın yeni əlifbaya keçirilməsi – latın qrafikalı əlifbanın reallığa çevrilməsi idi. Heydər Əliyevin – "Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır" tarixi çağırışı təhsil sistemində özünün tam həllini tapmışdır. İstedadlı gənclərin təhsilə marağını daha da artıraraq dəstəkləmək üçün H. Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşməsi, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərar qəbul etməsi dahi şəxsiyyətin təhsilə olan diqqətinin daha bir nümunəsi olmuşdur. Heydər Əliyev 1970-82-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir [2., s. 121].

Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi, təhsil sahəsində də bir canlanma, yeniləşmə nəzərə çarpmağa başladı. Ümummilli liderimiz Heydər Əliyevin təhsil sahəsindəki siyasətinin böyük təsiri nəticəsində müsbət irəliləyişlər olmuş, orta ixtisas, eləcədə ali məktəblərdə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemlərin həlli üçün effektiv üsul və metodların tətbiqi önə çəkilmişdir.

Heydər Əliyev həmişə öz nitqində demişdir: "İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamızın müstəqil dövlət kimi milli dialogiya konsepsiyasını yaradaraq, təhsil sahəsini də milli məqsədlər və mənafelər əsasında qurmalıdır" [4, s. 251].

Ulu Öndər öz siyasətində müntəzəm olaraq ziyalılarla görüşlərə önəm vermiş, onların problemləri və qayğıları ilə daim maraqlanmışdır. 1993-cü ildə ziyalılarla keçirilən görüşlərin birində dahi rəhbər demişdir ki, "Mən məktəb, maarif, təhsil ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan və nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə və müəllimə kömək etməlidir" [2, s. 99]. Bununla da xalqımızın dahi rəhbəri həyatının və dövlət idarəçiliyinin bütün mərhələlərində məhz bu mövqe də dayanaraq təhsilə yüksək qiymət vermişdir.

Ümumiyyətlə dahi rəhbərin təhsilə bağlılığı onun bütün fikirlərində öz əksini tapаraq hazır ki vaxtadək dillər əzbəri olmuşdur. Onun "Hər kəs məktəbin, müəllimin həyat yolunda nə kimi rolu olduğunu bilir və qiymətləndirir. Mən isə həmişə həyatımda bütün varlığım ilə keçdiyim həyat yoluna görə məktəb və müəllimlərə borcluyam. Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, müasir Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, elmə malik insanlar var və onlar cəmiyyətin əsas hissəsini təşkil edir. Əgər bunlar olmasaydı Azərbaycanın iqtisadiyyatı, elmi-texniki potensialı inkişaf edə bilməzdi və biz dövlətimizi müstəqil olaraq idarə edə bilməzdik. Bunları qiymətləndirmək lazımdır, on illərlə əldə etdiyimiz nailiyyətləri heç vaxt unutmamalıyıq" [4, s. 175].

Hazırki dövrümüzdə əsası dahi rəhbərimiz tərəfindən qoyulmuş uğurlu təhsil siyasəti nəticəsində gənc nəsil cəmiyyətin elmi inkişaf səviyyəsini yalnız maariflənməklə bilavasitə bağlı olduğunu anlayır. Belə ki, təhsil vətəndaşın xarakterini tərbiyə edib onun özündən əmin, məsuliyyətli olmasına xidmət edir və doğru davranış qaydaları qazandırır. Çünki təhsil insanın özünü tanımasına, həqiqəti dərk etməsinə kömək edir. Bu xüsusiyyətləri qazanmış bir insan və ya vətəndaşlardan ibarət olan cəmiyyət elmi, mədəni və iqtisadi inkişafını təmin edə bilən toplum olar. Bir sözlə təhsilsiz cəmiyyət müstəmləkə olmağa məhkumdur. İnkişafla ayaqlaşmaq, maddi və mənəvi müxtəlifliyin içində doğrunu seçmək, mütərəqqi düşünə bilmək üçün təhsil ən əhəmiyyətli şərtdir. Özünü, millətini, dövlətini sevən hər bir fərd dünyaya gəldiyi gündən ölənə qədər elm almağa çalışmalıdır. Həmçinin hər bir cəmiyyətdə elmin və təhsilin əhəmiyyəti gənc nəslə aşılanmalıdır. Çünki milli-mənəvi dəyərlərimizi qorumanın yeganə yolu oxumaqdan və təhsildən keçir.

Respublikamızda qəhrəman generalımız Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradılmasaydı, bizim ordumuzdakı o zabitlərin çoxu yəqin ki, olmayacaqdır. Çünki bu zabitlərin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra təxminən 800–900 nəfər gənc azərbaycanlı Sovet İttifaqının ali hərbi məktəblərinə göndərilirdi. O cümlədən Bakıda yerləşən iki ali hərbi məktəb də, - onlar indi bizim ixtiyarımızdadır, - zabitlər hazırlanır. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir, onlar xidmət edirlər. Bu gün isə hər şey bizim əlimizdədir və çalışmalıyıq ki, bu imkanlarımızdan istifadə edib güclü ordu yaradaq və yaratmışıq. Həmin ordudur ki, 44 günlük döyüş ərzində torpaqlarımızı azad etdi.

Ulu öndər gənclərin qayğısına qalaraq onlara xüsusi diqqət yetirirdi. Gənclərin qarşısında duran əsas vəzifələrdən biri mənəvi – tərbiyə məsələsidir. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli – mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli – mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməli, keçmişimizi, dilimizi yaxşı bilməlidir. Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni, torpağı, xalqımızı, millətimizi, dinimizi, milli - ənənələrimizi sevməlidir.

Gənclər hər bir millətin yaşaması, çağdaş və gələcək inkişaf üçün potensial qüvvə, hər bir dövlətin gələcək özülü, cəmiyyətin düşünən beyni və insan kapitalının mühüm tərkib hissəsidir.

Hər bir xalqın var olması və gələcək inkişafını təmin etmək üçün onun sağlam və savadlı, tərəqqipərvər və güclü gəncliyinin olması vacibdir. Ölkədə dövlətçiliyin daha da möhkəmləndirilməsində, cəmiyyətdə demokratik baxışların bərqərar olmasında, bütün sahələrdə inkişaf və tərəqqinin etibarlı təminatında savadlı, bilikli, intellektual səviyyəli gəncliyin rolu danılmazdır.

Son illərdə ölkədə aparılan kadr islahatları, gənc kadrların dövlət strukturunda məsuliyyətli vəzifələrə təyinatı müasir dövrdə ölkəmizdə dərin bilikli və yüksək bacarıqlı gənc kadrlar korpusunun formalaşmasının əyani sübutudur. Beləliklə, gəncliyin ortaya çıxmasında ilkin şərtlərdən biri və ən əsası təhsildir deyə bilərik.

Ulu Öndərin təhsil sahəsində gördüyü işlərdən biri də onun tərəfindən verilmiş " Dövlət dilinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycan dili günün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli bəyanatı, "Azərbaycan Respub-

likasının dövlət dili haqqında" AR Qanunun təsis edilməsi barədə sərəncamı təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasına zəmin yaratmışdır. Təhsil inkişafının əsası Ümummilli lider tərəfindən qurulmuş siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və I vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilməkdədir.

**Problemin aktuallığı.** Heydər Əliyev tarixi bir şəxsiyyət kimi müstəqil dövlət quruculuğunda Azərbaycan təhsilinin, yüksək ixtisaslı mütəxəssislərin, hərbi kadrların, o cümlədən savadlı səhiyyə işçilərinin yetişdirilməsi kimi amillərin inkişafını təhsildə, maarifçilikdə görürdü. Ölkəmizin idarə olunmasında gənclərin dövlət, sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında rolu əvəzsizdir.

**Problemin elmi yeniliyi.** Ümummilli liderimiz Heydər Əliyevin təhsil sahəsindəki siyasətinin böyük təsiri nəticəsində müsbət irəliləyişlər olmuş, orta ixtisas, eləcədə ali məktəblərdə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemlərin həlli üçün effektiv üsul və metodların tətbiqi önə çəkilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd olunan fikirlər ali təhsil, ümumtəhsil məktəblərində dərs deyən müəllimlər və geniş ictimaiyyət üçün aktualdır.

**Ədəbiyyat:**


1. Sadıqlı, A. Ümummilli Lider Heydər Əliyev və Azərbaycan dili / A. Sadıqlı. -Bakı, -2011. - 180 s.
2. Əliyev, H. Təhsil millətin gələcəyidir / H.Ə. Əliyev, -Bakı: Təhsil, -2002. - 574 s.
3. Əliyev, H. Təhsil, bilik, məktəb / H.Ə. Əliyev, -Bakı: Müəllim, -2006. -386 s.
4. Əliyev, H. Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə / H.Ə. Əliyev, -Bakı, 2008. -637 s.
5. Əhmədov, R.Ə. Klassiklər və müasirlər. -Bakı, 2015. -364 s.


**E-mail:** ibishov.59@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva,**
*ped.ü.fəls.dok.* **X.A. Talıbova**
**Redaksiyaya daxil olub**: 21.08.2023.